www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-18 (1822) 31 oktyabr 2025-ci il



## İctimai səhiyyə fakültəsində mühüm yeniliklər həyata keçirilir

Rektor, professor Gəray Gəraybəyli Elmi Şurada bildirib ki, ATU kəmiyyət naminə keyfiyyətdən imtina etməyəcək

səh. 2

### “Brend tələbə”lərimiz mükafatlandırılıb

səh. 3

### Ölkəmizdə ilk dəfə hərbi təbabət üzrə fəlsəfə doktoru hazırlanıb

səh. 4

### Suverenlik ili: Azərbaycanın tarixi Zəfərindən gələcəyə uzanan yol

səh. 6




### Ağız və Üz-çənə Cərrahları Cəmiyyətinin beynəlxalq konqresi keçirilib

Tədbir çərçivəsində türk dövlətlərinin müvafiq qurumları arasında əməkdaşlıq memorandumu imzalanıb

səh. 3

### Əczaçılar ATU-da bir araya gəlib

*Tezliklə dərman təminatının maliyyələşdirilməsində yeniliklər olacağı açıqlanıb*

səh. 5

### Baxıb-görməklə plastik cərrah olmaq mümkün deyil

*Adil Cümşüdov: Orqanların köçürülməsində plastik cərrahiyyənin rolu və əhəmiyyəti xeyli dərəcədə artacaq*

səh. 6



### Belarus səhiyyə nazirinin müavini universitetimizin qonağı olub

ATU-nun əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilib

səh. 2



# Belarus səhiyyə nazirinin müavini universitetimizin qonağı olub

## ATU-nun əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilib

Ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının səhiyyə nazirinin müavini Aleksandr Starovoytov Azərbaycan Tibb Universitetini ziyarət edib.

Rektor, professor Gəray Gəraybəyli qonağı salamlayaraq Azərbaycanın səhiyyə sistemi, tibb təhsilində son illərdə həyata keçirilən yeniliklər və islahatlar, xüsusilə rezidentura təhsil pilləsi haqqında ətraflı məlumat verib.

Professor G.Gəraybəyli görüş zamanı ATU-nun fakültələri, tədris olunan ixtisaslar, klinik bazalar və beynəlxalq mübadilə proqramları barədə geniş məlumat təqdim edib. O, həmçinin Belarusun tibb universitetləri ilə ATU arasında mövcud əməkdaşlıq müqavilələri və birgə layihələrdən danışıb.

Belaruslu qonaq Azərbaycanda olmağından məmnunluğunu ifadə edib və səfərinin məqsədləri barədə məlumat verib. O, rəhbərlik etdiyi qurumun fəaliyyəti, Belarusun səhiyyə sistemi və tibb təhsili strukturu haqqında da ətraflı danışıb. A.Starovoytov ATU-nun fəaliyyəti ilə tanış olaraq universitetin əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib.

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, dosent Nadir Zeynalov iki ölkə arasında dövlət səviyyəsində mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini xüsusi vurğulayıb. O bildirib ki, Azərbaycan və Belarus arasında elmi əməkdaşlıq ildən-ilə genişlənir və bu proses səhiyyə sahəsində bilik və təcrübə mübadiləsinə mühüm töhfə verir.

**Günel ASLANOVA**



# ATU Malayziyanın MAHSA Universiteti ilə əməkdaşlığa başlayır

## Tərəflər anlaşma memorandumunun imzalanmasını dəstəkləyiblər

Rektor, professor Gəray Gəraybəyli Malayziyanın MAHSA Universitetinin rəhbərliyi ilə online formatda görüş keçirib. Görüş Azərbaycan Respublikasının Malayziyadakı səfirliyinin dəstəyi ilə baş tutub.

Görüş zamanı iki ali təhsil müəssisəsi arasında qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub. Hər iki universitetin rəhbərləri təmsil etdikləri ali məktəblər haqqında ətraflı məlumat verib və gələcəkdə birgə elmi-tədqiqat layihələrinin, tələbə və müəllim mübadiləsinin, həmçinin digər akademik fəaliyyətlərin həyata keçirilməsi istiqamətində əməkdaşlıq perspektivlərini dəyərləndiriblər.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında universitetin tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçdiyini, hazırda xarici tələbələrin sayına görə ölkədə birinci yerdə olduğunu və bu sahədə əldə olunan uğurların Azərbaycan tibb təhsilinin beynəlxalq səviyyədə tanınmasına xidmət etdiyini vurğulayıb. Rektor qeyd edib ki, belə görüşlər ali təhsil müəssisələri arasında akademik əməkdaşlığın genişlənməsi, elmi biliklərin mübadiləsi və tələbələr üçün yeni təcrübə imkanlarının formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir. O, bu istiqamətdə əməkdaşlığın qurulacağına inandığını və universitetlər arasında anlaşma memorandumu imzalanmasının səmərəli olacağını qeyd edib.

MAHSA Universitetinin qurucusu, senator professor Tan Sri Dr. Hj. Mohamed Haniffa isə çıxışı zamanı bildirib ki, 2004-cü ildə paytaxt Kuala-Lumpurda əsası qoyulan MAHSA (Malaysian Allied Health Sciences Academy) dünyanın ən nüfuzlu təhsil ocaqlarından biridir. O qeyd edib ki, universitet "Quacquarelli Symonds (QS)" Agentliyinin beynəlxalq reytinq cədvəlində yer alır və 97 proqram üzrə bakalavriat, magistratura və doktorantura pillələrində kadr hazırlığı aparır. Hazırda 75 ölkədən olan tələbələr Müalicə işi, Stomatologiya, Tibb bacısı işi, Əczaçılıq, Sağlamlıq elmləri və Biologiya fakültələrində təhsil alır. Professor anlaşma memorandumunun imzalanması ideyasını tam dəstəklədiyini ifadə edib.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Orxan İsayev, Azərbaycanın Malayziyadakı səfirinin müşaviri Sərxan İsm ayılov, birinci katib Şəbnəm Kərimova, MAHSA Universitetindən rəhbər şəxslər iştirak ediblər.

**Oktyabrın 28-də Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının növbəti iclası keçirilib. İclası açan rektor, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdıqdan sonra İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyevanın "İctimai səhiyyə fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi dinlənilib.**

# İctimai səhiyyə fakültəsində mühüm yeniliklər həyata keçirilir






Son illər universitetimizdə iqtisadiyyatın, əmək bazarının və cəmiyyətin tələbatını nəzərə alaraq yeni təhsil proqramları və yeni ixtisasların yaradılması istiqamətində ciddi islahatlar aparıldığını söyləyən dekan bildirib ki, yeni ixtisasların yaradılmasında məqsəd dünya təhsil ictimaiyyətinə inteqrasiyadır: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" ilə bağlı Sərəncamına əsasən, ATU-nun rəhbərliyi islahatlar çərçivəsində dünyada mövcud olan ixtisaslara uyğunluğu təmin etmək məqsədilə "Tibb bacısı (qardaşı) işi", "Fizioterapiya və tibbi reabilitasiya" və "İctimai səhiyyə" kimi yeni ixtisasların yaradılması barədə qərar qəbul edib".

Q.Qəniyeva 2020-ci ildən fakültədə "Tibbi profilaktika" ixtisası ilə yanaşı, Təhsil Nazirliyinin qərarına əsasən, yuxarıda qeyd olunan yeni ixtisaslar üzrə də kadr hazırlığının həyata keçirildiyini vurğulayıb. Fakültənin nəzdində 9 kafedranın fəaliyyət göstərdiyini və həmin kafedralarda 20-si professor, 57-si dosent, 27-si baş müəllim və 56-sı assistent olmaqla ümumilikdə 160 nəfərdən ibarət professor-müəllim heyətinin çalışdığını diqqətə çatdıran dekan, hesabat dövründə fakültədə tələbələrin 4 ixtisas üzrə hazırlandığını deyib. Onun sözlərinə görə, 2024-2025-ci tədris ilində fakültədə təhsil alan 641 tələbənin 49%-i "İctimai səhiyyə", 24% -i "Tibb bacısı işi", 22%-i "Fizioterapiya və tibbi reabilitasiya", qalan 5%-i isə "Tibbi profilaktika" ixtisası üzrə, o cümlədən fakültə üzrə 92% tələbə dövlət sifarişi əsasında oxuyur.

Q.Qəniyeva söyləyib ki, yeni ixtisaslara qəbul balları kifayət qədər yüksəkdir. 2023-2024-cü tədris ilindən "İctimai səhiyyə" və "Tibb bacısı işi" ixtisasları üzrə qəbul planı artırılıb, müvafiq olaraq əlavə 10 və 20 yer ayrılıb. 2020-2025-ci illəri əhatə edən hesabatda fakültə məzunlarının sonrakı taleyinin izlənildiyinə dair statistik məlumatlar da öz əksini tapıb. Belə ki, 2024-2025-ci tədris ilində işlə təmin edilənlər 41%, magistratura və rezidentura pilləsinə (yerli və xarici) qəbul olunanlar 30%, 2-ci təhsilə (tibb və stomatologiya) başlayanlar 16%, digərləri 13% təşkil edib.

2023-cü ildə universitetin inkişaf strategiyası təsdiq edilib və bununla əlaqədar fakültədə İnkişaf strategiyasının həyata keçirilməsi üzrə komissiya yaradılıb. Fakültə dekanı tələbələrin təcrübi bacarıqlarının yaxşılaşdırılması məqsədilə həm tədris, həm istehsalat təcrübəsi, həm də kurikulumdan kənar təcrübə bazalarının nəzərdən keçirildiyini və yeniləndiyini də diqqətə çatdırıb. Eyni zamanda müasir təhsilin tələblərindən biri olan mübadilə proqramlarında tələbələrin və müəllimlərin iştirakının vacibliyinə toxunaraq, bu istiqamətdə aparılan işlərin əhəmiyyətindən danışıb.

Hesabatda məzunların istehsalat təcrübəsi və yekun qiymətləndirilməsi, ixtisas üzrə müvəffəqiyyət göstəriciləri haqda məlumat öz əksini tapıb. Dekan görülən işləri ümumiləşdirmək üçün ixtisaslar üzrə SWOT analizini (təhlil) təqdim edib: hər bir ixtisasın güclü və zəif tərəfləri, imkanlar və təhlükə. Sonra Fakültə Elmi Şurası və TEC-in fəaliyyətinə, elmi-tədqiqat və tələbələrlə aparılan tərbiyəvi işin vəziyyətinə geniş yer ayrılıb.

Məruzənin sonunda o da vurğulanıb ki, sosial şəbəkələrdə fakültənin səhifələri aktiv fəaliyyət göstərir. Fakültənin gündəlik həyatı bu səhifələrdə öz əksini tapır və məqsəd tələbələrə daha yaxın olmaq, onları birləşdirmək, eyni zamanda ictimaiyyəti məlumatlandırmaqdır.

Məruzə ətrafında çıxış edən Ailə təbabəti kafedrasının müdiri, professor İbrahim İsayev bildirib ki, fakültənin nəzdində fəaliyyət göstərən "Tibb bacılığı işi" ixtisası üzrə tədrisin təşkili xüsusi önəm daşıyır: "Əvvəllər bu ixtisas üzrə ölkədə nə tədris planı, nə proqram, nə də dərslik mövcud olub. Kafedranın əməkdaşları Avropa və Türkiyə universitetlərinin təcrübəsindən yararlanaraq dörd fənn üzrə proqram və sillabuslar hazırlayıb, dörd dərslik çap etdiriblər. Nəticədə imtahanların təşkili səmərəli həyata keçirilir, tələbələrin biliklərinin qiymətləndirilməsi iki formatda aparılır. Hazırda dərslər yüksək səviyyədə, həm yerli, həm də xarici tədris vəsaitlərindən istifadə etməklə aparılır".

Ölkədə bu ixtisas üzrə yeni rəqabət mühitinin yarandığını söyləyən professor, gələcəkdə ayrıca kafedranın açılmasını məqsədəuyğun hesab etdiyini diqqətə çatdırıb.

Hesabatın yüksək səviyyədə hazırlandığını bildirən Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev Qalina xanımı uzun illərdir tanıdığını və onun peşəsinə sadiq, işini dərindən bilən bir mütəxəssis olduğunu vurğulayıb. Qeyd edib ki, hər bir elm sahəsinin öz predmeti olduğu kimi, insanın da öz peşəsinə yanaşma tərzi onun bilik və intellekt səviyyəsinin göstəricisidir.

Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova əvvəlki natiqlərin fikirlərini dəstəkləyərək hesabatı yüksək qiymətləndirib. O, fakültənin son illərdə yeni ixtisasların və fənlərin tədrisinə başlayaraq böyük məsuliyyət və əmək tələb edən işlərin öhdəsindən layiqincə gəldiyini söyləyib: "Fakültə hazırda dəyişikliklərin və yeniliklərin tətbiq olunduğu çətin dövrü yaşayır, lakin dekanlıq bu prosesi uğurla idarə edir. Fakültə ilə kafedralar arasında səmərəli əməkdaşlıq qurulur və bu əməkdaşlıq ümumi uğurlara müsbət təsir göstərir".

Müzakirələri yekunlaşdıran rektor, professor Gəray Gəraybəyli qeyd edib ki, son illərdə ən sürətlə inkişaf edən fakültələrdən biri məhz İctimai səhiyyə fakültəsidir. Digər fakültələrdə proqramlar yenilənsə də, yeni ixtisasların və istiqamətlərin açılması, gələcəkdə yeni kafedraların yaradılması baxımından ən geniş imkanlar məhz bu fakültədə mövcuddur. Səhiyyənin əmək bazarında yeni tələblərin formalaşdığına diqqət çəkən rektor vurğulayıb ki, universitet bu prosesdən geri qalmamalıdır. Fakültədə son 5 ildə mühüm islahatların həyata keçirildiyini, yeni ixtisasların yaradıldığını və tədris keyfiyyətinin yüksəldiyini müsbət hal kimi dəyərləndirən universitetin rəhbəri bildirib ki, sadalananların bir göstəricisi də qəbul ballarının ilbəil artmasıdır.

Professor G.Gəraybəyli onu da xatırladıb ki, bu ildən etibarən bir neçə yeni magistratura proqramı açılsa da, bəzi ixtisaslarda hələ də qəbul azdır: "Bu ilkin mərhələ üçün təbii hal hesab olunsa da, müəllim bazasının və tədris infrastrukturunun gücləndirilməsi, xüsusən tibb bacılığı və fizioterapiya ixtisaslarında kadr çatışmazlığının mərhələli şəkildə aradan qaldırılması mühüm məsələdir".

Rektor bu ixtisasların beynəlxalq akkreditasiyaya hazırlanmasının vacibliyini qeyd edərək, bunun fakültənin nüfuzunu daha da artıracağını, beynəlxalq mübadilə proqramlarında fakültənin əməkdaşları və tələbələrinin iştirakına müsbət təsir edəcəyini vurğulayıb.

Yekun nitqində universitetin inkişafında keyfiyyət prinsipinin əsas prioritet olduğunu bir daha xatırladan rektor qeyd edib ki, keyfiyyəti qorumaq üçün kəmiyyətdən imtina etməli olsaq belə, bu yoldan dönməyəcəyik. Rektor tələbələrin imtahanlarla bağlı müraciətlərinə də toxunaraq, imtahanların sadələşdirilməsi və ya hazır PDF materiallarının paylanmasının universitetin tədris siyasətinə uyğun olmadığını şura üzvlərinin diqqətinə çatdırıb.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə baxılıb. Səhiyyə Nazirliyi tərəfindən Azərbaycan Tibb Universitetinə göndərilən metodik vəsaitlərin ətraflı şəkildə qiymətləndirilməsi üçün aidiyyəti üzrə kafedralardan verilən rəyə uyğun qərar qəbul edən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşri məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**
**Aytac ƏSƏDOVA**

# Ağız və Üz-çənə Cərrahları Cəmiyyətinin beynəlxalq konqresi keçirilib

## Tədbir çərçivəsində türk dövlətlərinin müvafiq qurumları arasında əməkdaşlıq memorandumu imzalanıb

**Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin III beynəlxalq konqresi keçirilib. Bu ilki konqres cərrahiyyə sahəsində dünyanın ən nüfuzlu təşkilatlarından biri olan, 50 il əvvəl yaradılmış Beynəlxalq Üz-Çənə Cərrahları Kollecinin (ICMFS) 33-cü konqresi çərçivəsində baş tutub.**



"Yeni elmi və praktiki üfüqlə addımlayırıq!" şüarı altında keçirilən elmi forum çərçivəsində dünyanın tanınmış mütəxəssislərinin iştirakı ilə müxtəlif elmi sessiyalar və master-klaslar təşkil olunub.

Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov açılış nitqi ilə çıxış edərək, Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyəti tərəfindən ənənəvi olaraq təşkil olunan bu mötəbər konqresin artıq 3-cüsünün Azərbaycanda keçirilməsindən böyük qürur və sevinc duyduğunu bildirib: "Bu tədbir sadəcə bir elmi forum deyil, üz-çənə cərrahiyyəsi sahəsində bilik və təcrübə mübadiləsinin möhkəmləndirilməsi, tibb elminin yeni çağırışlarına birlikdə cavab axtarılması və peşəkar həmrəyliyin gücləndirilməsi üçün dəyərli bir platformadır. Konqres, eyni zamanda yerli mütəxəssislərimizin beynəlxalq elmi ictimaiyyətlə əlaqələrinin genişlənməsinə xidmət edir".

Daha sonra çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli diqqətə çatdırıb ki, tədbirə 30-dan çox ölkədən nümayəndələr qatılıb: "Üçgünlük zəngin elmi proqram çərçivəsində plenar iclaslar, simpoziumlarla yanaşı, Azərbaycanda ilk dəfə olaraq beynəlxalq mütəxəssislərin iştirakı ilə üz cərrahiyyəsi və almacıq diş implantasiyasına dair iki kadavra kursu, həmçinin real pasiyentlər üzərində estetik təbabətə aid master-klass keçiriləcək. Bu, gənc həkimlər və rezidentlər üçün böyük bir məktəbdir".



Səhiyyə nazirinin müavini Nadir Zeynalov və Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxışlarında bu tədbirin üz-çənə cərrahiyyəsinin müxtəlif aspektlərini müzakirə etmək, çağdaş yanaşmaları paylaşmaq və birgə əməkdaşlıq üçün zəmin yaratmaq baxımından önəmli olduğunu vurğulayıb, Özbəkistan, Hindistan, Rusiya, İspaniya, ABŞ, Türkiyə, Serbiya, Filippin, Kipr, Argentina, Braziliya, Polşa, İtaliya və digər ölkələrdən 300-dən çox mütəxəssisin iştirak etməsini yüksək qiymətləndiriblər.

Qeyd edək ki, 3 gün davam edən konqresin zəngin elmi proqramı, eləcə də təşkil olunan kadavra kursları və master-klaslar Səhiyyə Nazirliyi tərəfindən ən yüksək – 35 DTT balı ilə akkreditasiya olunub.

Tədbir çərçivəsində Beynəlxalq Üz-Çənə Cərrahları Kollecinin Baş Assambleyası da keçirilib. Bu yığıncaqda professor Çingiz Rəhimov təşkilatın 1-ci Vitse-prezidenti vəzifəsinə təyin olunub.

Onu da nəzərə çatdıraq ki, konqres zamanı Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı Ağız və Üz-Çənə Cərrahları cəmiyyətlərini təmsil edən nümayəndələr arasında əməkdaşlıq memorandumu imzalanıb. Bu memorandum türk dünyasının mütəxəssisləri arasında əlaqələrin möhkəmləndirilməsi, təcrübə mübadiləsi və gələcək əməkdaşlıq imkanlarının genişləndirilməsi üçün əhəmiyyətli zəmin yaradacaq.

# İlk dəfə Bakı Retina Beynəlxalq Elmi Konfransı təşkil olunub



Azərbaycanda ilk dəfə retina xəstəliklərinə həsr olunmuş beynəlxalq səviyyəli elmi tədbir - Bakı Retina Beynəlxalq Elmi Konfransı keçirilib. Konfrans Səhiyyə Nazirliyi və ATU Oftalmologiya kafedrasının tərəfdaşlığı ilə təşkil olunub.

Açılış mərasimində Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktoru, professor Nazim Pənahov çıxış edərək, tədbirin oftalmologiya sahəsində elmi bilik və təcrübə mübadiləsi üçün mühüm platforma olduğunu vurğulayıb və iştirakçılara uğurlar arzulayıb.

ATU-nun Tədris işləri üzrə prorektoru, professor Anar Ağayev universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını konfrans iştirakçılarına çatdıraraq, tədbirin elmi əməkdaşlıq baxımından əhəmiyyətini qeyd edib. O bildirib ki, bu kimi beynəlxalq tədbirlər Azərbaycan tibb elminin inkişafına mühüm töhfə verir.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan çıxışında konfransın oftalmologiya sahəsində bilik və bacarıqların artırılmasına, eləcə də müasir trendlərin öyrənilməsinə böyük imkan yaratdığını vurğulayıb.

Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur öz çıxışında bu sahədə baş verən yeniliklərdən bəhs edərək, beynəlxalq elmi əməkdaşlığın oftalmologiyanın gələcək inkişafı üçün vacibliyini qeyd edib.

Konfransın elmi hissəsinə tibb elmləri doktoru, vitreo-retinal cərrah Tural Qəlbinur sədrlik edib. O, tədbirin Azərbaycanın oftalmologiya icması üçün yeni bir mərhələ açdığını bildirib: "Tədbirimizdə 11 ölkədən 21 tanınmış spiker retina xəstəliklərinin diaqnostika və müalicəsində tətbiq olunan ən son elmi yeniliklər, qabaqcıl texnologiyalar və innovativ yanaşmalar haqqında məruzələrlə çıxış edəcək".

Konfrans Səhiyyə Nazirliyi yanında fəaliyyət göstərən Elmi Tibbi Şura tərəfindən Davamlı Tibbi Təhsil (DTT) kredit balı ilə akkreditasiya olunub. Bu, iştirakçıların əldə etdiyi bilik və təcrübələrin rəsmi şəkildə tanınmasına zəmanət verir.

# Prorektor Hərbi tibb fakültəsində tədris prosesini izləyib

**Tədris işləri üzrə prorektor, professor Anar Ağayev Hərbi tibb fakültəsini ziyarət edib. Səfərin məqsədi fakültədə tədris prosesinin təşkili, tələbələrin hazırlıq səviyyəsi və təlim-tədris şəraitinin mövcud vəziyyəti ilə yerində tanış olmaq olub.**



Ziyarət zamanı prorektor fakültənin auditoriyalarında və laboratoriyalarında keçirilən dərs prosesini izləyib, professor-müəllim heyətinin və tələbələrin fəaliyyətini yaxından müşahidə edib. O, fakültənin rəhbərliyi və müəllim kollektivi ilə görüşərək tədrisin keyfiyyətinin artırılması, praktiki məşğələlərin səmərəliliyinin yüksəldilməsi, həmçinin müasir tədris metodlarının tətbiqi istiqamətində fikir mübadiləsi aparıb.

Prorektor Hərbi tibb fakültəsinin ilk xanım kursantları ilə də görüşərək, onların tədrisə münasibəti, təlim şəraiti və gələcək planları ilə maraqlanıb. Fakültə rəhbərliyi qızların hərbi-tibbi təhsilə cəlb olunmasını əhəmiyyətli addım kimi qiymətləndirərək, onların uğurlu fəaliyyəti üçün bütün zəruri şəraitin yaradıldığını bildirib.

Fakültənin dekanı, polkovnik Məharət Rzayev isə prorektor A.Ağayevin fakültəyə səfəri və tədris prosesinə göstərdiyi diqqəti həm müəllimlər, həm də tələbələrin daha yüksək səviyyədə fəaliyyət göstərməsinə əlavə motivasiya kimi qiymətləndirib.

# Prezident təqaüdünə layiq görülən tələbələrimizi tanıyaq

**I Müalicə-profilaktika fakültəsi, Azərbaycan bölməsi:**
1. Ağayev Əliəkbər - 697.0
2. Əliyeva Fidan - 694.8
3. Məmmədov Şahin - 690.9
4. Şərifli Fidan - 689.3
5. Quluzadə Növrən Nail - 687.9
6. Məmmədova Fidan - 687.4
7. Qarayev Rəfail Yusif - 686.3
8.Abdurəhmanova Guhat - 685.2

**Rus bölməsi:**
9. Abdullayeva Ayan - 687.4

**İngilis bölməsi:**
10. Abdulsəmədli Orxan - 700
11. Hüseynova Aysu - 692.8
12. Hüseynli Arif - 692.3
13. Əsgər İlaham - 691.3
14. Əliyeva Tamella - 690.9
15. Abdullayeva Məryəm - 689.0
16. Səfərova Aysel - 687.9
17. Ağammədova Zeynəb - 686.7
18. Sarıyev Murad - 684.9

**II Müalicə-profilaktika fakültəsi, Azərbaycan bölməsi:**
1. Nurməmmədli Sona - 700.0
2. Xəlilova Aylin - 697.5
3. Babayev Anar - 695.8
4. Həsənov Fizuli - 693.5
5. Vəlizadə Aygün - 690.8
6. Əliyeva Nəzrin - 687.8
7. Məmmədova Nəzrin - 686.6

**Stomatologiya fakültəsi, Azərbaycan bölməsi:**
1. Rəhimli Oruc - 672.5

Gələcəyin həkimlərini səmimi-qəlbdən təbrik edirik!

# "Brend tələbə"lərimiz mükafatlandırılıb

## Elşad Eyvazlı: Əsas məqsədimiz gənclərin uğurlarını cəmiyyətə göstərməkdir

AzEdu.az təhsil portalı və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə universitetimizdə təhsil alan "Brend tələbə"lər təltif olunub. Qeyd edək ki, AzEdu.az-ın ali məktəblərlə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Brend tələbə" layihəsi xüsusi meyarlara uyğun seçilən tələbələrin mükafatlandırılmasını nəzərdə tutur.

Tədbirdə AzEdu.az təhsil portalının təsisçisi, Parlament Jurnalistləri Birliyinin (PJB) sədri Elşad Eyvazlı, AzEdu.az-ın direktoru Ləman Novruzova, portalın əməkdaşı Esmira Əliyeva, universitetimizdən isə Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov, I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova və bu statusa layiq görülmüş tələbələr iştirak ediblər.

Mərasimdə çıxış edən prorektor Mahir Səfərov tələbələri təbrik edib və




qonaqlara universitetdə həyata keçirilən yeniliklər haqqında məlumat verib: "Arzu edirəm ki, "Brend tələbə"lərimizin fəaliyyəti yalnız universitet illəri ilə məhdudlaşmasın, sonrakı dövrdə də nailiyyətləri bol olsun".

AzEdu.az-ın təsisçisi, PJB sədri Elşad Eyvazlı "Brend tələbə" adına layiq görülən tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzu edib: "Vaxt ayırdığı üçün ilk növbədə universitet rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk. Bu layihə 3-cü ildir ki, həyata keçirilir. Layihədə bir neçə meyar nəzərə alınır. Məsələn, universitetdənkənar fəaliyyət, dil bilikləri, idarəçilik bacarıqları və digər göstəricilər birləşdirilərək "Brend tələbə"lər müəyyənləşdirilir. Əsas məqsədimiz gənclərin hər hansı sahədə qazandıqları uğurları cəmiyyətə göstərməkdir".

Daha sonra Ləman Novruzova çıxış edərək, minlərlə tələbənin arasından seçilən 10 nəfərdən biri olmağın həm qürur, həm də böyük məsuliyyət yaratdığını bildirib: "Universitet sizləri bu siyahıya daxil etməklə, tələbəlik həyatınız boyunca göstərdiyiniz səyləri, bilik və bacarıqlarınızı yüksək qiymətləndirdiyini göstərir. Layihəyə başladığımız zaman 20 universitet bizimlə əməkdaşlıq edirdisə, bu gün bu say 29-a çatıb. Gələcək hədəfimiz Azərbaycanın bütün universitetlərini layihəyə daxil etməkdir".

Tədbirin sonunda "Brend tələbə"lər təltif olunub və xatirə şəkli çəkilib.

**2024-2025-ci tədris ili üzrə ATU-nun bu statusa layiq görülmüş tələbələri aşağıdakılardır:**

- Kənan Kazımov - I Müalicə-profilaktika fakültəsi;
- Gülay Novruzova - I Müalicə-profilaktika fakültəsi;
- Fidan Vəlizadə - I Müalicə-profilaktika fakültəsi;
- Eldar Baxşəliyev - II Müalicə-profilaktika fakültəsi;
- Leyla Əhmədova - II Müalicə-profilaktika fakültəsi;
- Teymur Rəhimov - Əczaçılıq fakültəsi;
- Jalə Abbasova - Əczaçılıq fakültəsi;
- Nigar Əfəndiyeva - Stomatologiya fakültəsi;
- Xəyal Fətullayev - Stomatologiya fakültəsi;
- Nailə Əhmədova - İctimai səhiyyə fakültəsi.

## ATU-nun professoru Nobel mükafatına təqdim edilib



Almaniyanın Hannover şəhərində fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyası və Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının qərarı ilə tanınmış professor, tibb elmləri doktoru, plastik və rekonstruktiv cərrah Vaqif Qələndər 2025-ci il tibb nominasiyası üzrə Nobel mükafatına təqdim edilib.

Yeni metodları dünya alimləri tərəfindən yüksək qiymətləndirilən V.Qələndər bir çox beynəlxalq mükafatlara və ordenlərə, o cümlədən Avropa Təbiət Elmləri Akademiyasının "Ali xidmət" ordeninə, Türk Dünyası Araşdırmaları Akademiyasının Qızıl Ulduz medalı və "Şərəf" ordeninə, Beynəlxalq Atatürk mükafatı və Beynəlxalq Mükafatlar Komitəsi (Cenevrə, İsveçrə) tərəfindən "Hippokrat" ordeninə layiq görülüb.

Qeyd edək ki, V.Qələndər 2003-cü ildə tibb üzrə fəlsəfə doktoru, 2017-ci ildə isə tibb elmləri doktoru alimlik dərəcəsi alıb. Hal-hazırda Azərbaycan Dövlət Tibb Universitetinin və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru vəzifəsində çalışır.

ABŞ-ın Florida universitetində Rui Fernandesin müəllifi olduğu "Local and Regional Flaps in Head & Neck Reconstruction" praktik yanaşma dərsliyinin 20-ci fəslində "Daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsulu rezidentlər və bu sahənin mütəxəssisləri üçün "Vaqif Qələndər" metodikası kimi tədris olunur.

## Əməkdaşımız nüfuzlu təşkilatın üzvü seçilib



Universitetimizin Tədris Cərrahiyyə Klinikasının kardioloqu, t.e.d. Yasmin Rüstəmova nüfuzlu American College of Cardiology (ACC) təşkilatının üzvü, Fellow (FACC) statusuna layiq görülüb.

Bu nüfuzlu titul beynəlxalq səviyyədə peşəkarlığın, liderliyin və kardiologiya sahəsinə verilən elmi-tibbi töhfələrin tanınması kimi qiymətləndirilir.

Y.Rüstəmova bu uğurla bağlı təəssüratlarını bölüşərək bildirib: "Bu titul mənim üçün sadəcə uğur deyil - bu, ürəyə, elmə və insanlara sevgi ilə gedilən bir yolun simvoludur. Mənə dəstək olan bütün həmkarlarıma, müəllimlərimə və dostlarıma dərin təşəkkür edirəm".

Kardioloq gənc həkimlərə də müraciət edərək böyük arzular qurmağı, öyrənməkdən usanmamağı və nəticəyə inanmağı məsləhət görüb.

## Nevroloqlarımız Daşkənddə çıxış edib



22-24 oktyabr tarixlərində Daşkənd şəhərində "STEP BY STEP ALONG THE SILK ROAD: müasir menecment, perspektivlər və multidissiplinar əməkdaşlıq" - I Mərkəzi Asiya Beynəlxalq Nevromuskulyar Xəstəliklər Konqresi keçirilib. Konqresdə Azərbaycandan da mütəxəssislər iştirak edib.

Universitetimizin Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli tədbirin moderatoru kimi elmi sessiyalara rəhbərlik edib və xarici mütəxəssislərlə sinir-əzələ xəstəliklərinin müasir menecmenti və perspektivləri mövzusunda müzakirələr aparıb. Kafedranın assistenti Mədinə Tağıyevanın "Düşən əzələ distrofiyası olan xəstələrdə steroid terapiyası protokolu", Uşaq Nevrologiya Xəstəxanasının baş həkimi İlahə Hacıyevanın isə "SMA-ya sistemli yanaşma: registrin yaradılması, diaqnostikanın təkmilləşdirilməsi və terapiyaya çıxış - Azərbaycan təcrübəsi" mövzularında təqdimatları iştirakçıların marağına səbəb olub.

## İnfeksion profilaktika mövzusunda müzakirələr aparılıb



Əməkdaşlarımız "İnfeksiyaya nəzarətdə yeni dövr – texnologiya və komanda işi" adlı tədbirdə iştirak ediblər. Tədbir TƏBİB-in dəstəyi və Azərbaycan Təlim və İnkişaf Mərkəzinin təşkilatçılığı ilə Yeni Klinikada, İnfeksiyaların Profilaktikası və Nəzarət (İPN) beynəlxalq həftəliyi çərçivəsində baş tutub.

Tədbirdə Epidemiologiya və biostatistika kafedrasının baş müəllimi Leyla Əhmədzadə, assistent Azər Rəşidov, eləcə də İnfeksiyaların Profilaktikası və Nəzarət kursunun magistrləri Səbinə Yusif və Ruslan Mikayılov iştirak ediblər.

A.Rəşidov "Təhlükəsizlik mədəniyyətinin inkişafı: mükəmməl infeksion profilaktika və infeksiyalara nəzarət" mövzusunda təqdimatla çıxış edib. O, beynəlxalq təcrübədən danışaraq, İPN xidmətinin təşkili, təlimlərin keçirilməsi, alovlanmaların idarə olunması, dərmanlara rezistent mikroorqanizmlərlə mübarizə üsulları, rəqəmsal texnologiyaların tətbiqi və komanda işinin əhəmiyyətini vurğulayıb.

## Tələbələrimiz "Azad Mirzəcanzadə inkişaf proqramı"na qoşulur



Oktyabrın 24-də "Azad Mirzəcanzadə inkişaf proqramı" çərçivəsində maarifləndirici tədbir təşkil olunub. Gənclərin yaradıcı potensialının üzə çıxarılması və innovativ ideyalarının dəstəklənməsi məqsədilə keçirilən tədbiri Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov açaraq qeyd edib ki, belə layihələr gənclərin elmi və praktiki bacarıqlarının inkişafına böyük töhfə verir.

Prorektor dünya şöhrətli azərbaycanlı alim, akademik Azad Mirzəcanzadənin adı ilə bağlı bu proqramın tibb tələbələri üçün də faydalı olacağına əminliyini vurğulayıb.

Bundan sonra proqramın layihə meneceri İradə Zeynalova çıxış edərək proqramın məqsəd və vəzifələrindən danışıb. Bildirib ki, "Azad Mirzəcanzadə inkişaf proqramı" gənclərin yaradıcı və elmi potensialını üzə çıxarmaq, onların innovativ layihələrini dəstəkləmək və peşəkar inkişafına təmin etmək baxımından əhəmiyyətlidir. O, həmçinin proqramın adını daşıyan görkəmli alim, texniki elmlər doktoru, akademik Azad Mirzəcanzadənin həyat və elmi fəaliyyəti haqqında ətraflı məlumat verib.

İ.Zeynalova çıxışının davamında proqrama qoşulma şərtlərini, seçim mərhələlərini və layihə qaliblərinin adlarını diqqətə çatdırıb.

Qaliblər arasında yer alan "Sərhədsiz Gənc" adlı layihənin müəllifi Gülşən Səfərova layihəyə necə qoşulduğunu, ideyasının formalaşma prosesini və proqramın gənclərin elmi və fərdi inkişafına verəcəyi töhfələr barədə öz fikirlərini və şəxsi təcrübəsini iştirakçılarla bölüşüb.

Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli də tədbirdə çıxış edərək A.Mirzəcanzadənin böyükmiqyaslı, geniş dünyagörüşə malik və uzaqgörən alim olduğunu bildirib. Vurğulayıb ki, belə bir görkəmli şəxsiyyətin adını daşıyan inkişaf proqramında iştirak etmək gənclər üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Dekan tələbələri və gənc mütəxəssisləri layihədə fəal iştirak etməyə çağırıb.

Tədbirin sonunda tibb tələbələrinin təqdim edə biləcəyi layihələrə dair fikir mübadiləsi aparılıb və iştirakçıların proqramla bağlı sualları cavablandırılıb.

## Ölkəmizdə ilk dəfə hərbi təbabət üzrə fəlsəfə doktoru hazırlanıb



**Hərbi tibb fakültəsinin Tibbi profilaktika kafedrasının baş müəllimi, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədova Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ölkəmizdə ilk dəfə olaraq "Hərbi təbabət – 7303.01" ixtisası üzrə fəlsəfə doktoru diplomu təqdim edilib.**

S.Əhmədov 2018-2022-ci illərdə Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunda "Hərbi təbabət" ixtisası üzrə adyunktura (doktorantura) təhsilini tamamlayıb. Onun "Hərbi qulluqçularda ilkin aşkarlanmış vərəmin epidemioloji xüsusiyyətləri" mövzusunda dissertasiya işi Epidemiologiya və biostatistika kafedrasının professoru Vaqif Vəkilovun elmi rəhbərliyi, Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramovun elmi məsləhətçiliyi ilə yerinə yetirilib.

2023-cü ilin mayında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Tibb Universiteti nəzdində yaradılan Birdəfəlik Dissertasiya Şurası BFD 4.16 tərkibinə "Hərbi təbabət" ixtisası daxil edilib. Şuraya Tədris Terapevtik Klinikanın direktoru, professor Vəsadət Əzizov sədrlik edib, professor Məhərrəm Niftullayev sədr müavini, dosent Töhfə Sadıqova isə elmi katib kimi fəaliyyət göstərib.

Elmi seminar 2023-cü ilin dekabrında Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayevin sədrliyi ilə Hərbi tibb fakültəsində keçirilib. 14 may 2024-cü ildə Saleh Əhmədov fəlsəfə doktorluğu işini uğurla müdafiə edib. Müdafiə prosesində fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev iştirak edərək dissertasiya barədə fikirlərini bölüşüb.

Bu il oktyabrın 10-da "Hərbi təbabət" üzrə fəlsəfə doktoru diplomu Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev tərəfindən tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədova təqdim olunub.

Bu mühüm elmi nailiyyət Hərbi tibb fakültəsinin fəaliyyətində əlamətdar hadisə olmaqla yanaşı, fakültə əməkdaşları üçün də stimullaşdırıcı nümunə rolunu oynayıb. Belə ki, Hərbi terapiya kafedrasının müəllimi, tibb xidməti mayoru Zeynal Abdullayev və Rezidentura bölməsinin zabiti, tibb xidməti kapitanı Aynəddin Aslanov 2025/2026-cı tədris ilində "Hərbi təbabət" ixtisası üzrə adyunktura (doktorantura) təhsilinə qəbul olunublar.

## Mammoqrafiyada müasir yanaşmalar və düzgün alqoritmlərin əhəmiyyəti

**Son zamanlar süd vəzi xəstəliklərinin ilkin diaqnostikasında mammoqrafiyanın rolu daha da önəmli yerə gəlib.**

Radiologiya kafedrasının assistenti Günel Əliyeva Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının regional konfransında "Süd vəzi müayinəsində mammoqrafiyaya praktiki yanaşma" mövzusunda çıxış edərək, müasir mammoqrafik müayinə metodlarını və onların üstünlüklərini təqdim edib.

G.Əliyeva qeyd edib ki, müasir mammoqrafiyada tamosintez, kontrastlı mammoqrafiya və ənənəvi 2D mammoqrafiya kimi müxtəlif metodlardan istifadə olunur. Hər birinin öz spesifikliyi, üstünlükləri və çatışmazlıqları mövcuddur. Mütəxəssis vurğulayıb ki, müayinənin effektivliyi üçün alqoritmlərin düzgün qurulması vacibdir. Müayinədə tətbiq olunan əsas alqoritmlər – yaş, skrininq və diaqnostik alqoritmlər süd vəzi xəstəliklərinin erkən aşkarlanmasında həlledici rol oynayır. Yaş alqoritminə görə, 35-40 yaş arasında risk faktorları olan qadınlarda, 40 yaşdan sonra isə sağlam qadınlarda müayinə başlanmalı və 1-2 ildən bir təkrarlanmalıdır. Skrininq alqoritmi simptomsuz qadınlarda dövri yoxlamaların necə aparılacağını müəyyən



edir. Diaqnostik alqoritm isə xəstəlik əlamətləri aşkarlandıqda, əlavə müayinələrin aparılmasını nəzərdə tutur.

Tədbirdə radioloqların xəstələrə məlumat verməsi mövzusu da müzakirə olunub.

# Əczaçılar ATU-da bir araya gəlib

## Tezliklə dərman təminatının maliyyələşdirilməsində yeniliklər olacağı açıqlanıb



**Oktyabrın 21-də Azərbaycan Tibb Universitetində “Əczaçılar Klubu” İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Əczaçı Gününə həsr edilmiş VI Ümumrespublika Əczaçılar Konfransı keçirilib. Tədbirdə ölkənin səhiyyə və əczaçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislər, alimlər, sahibkarlar, tələbələr və müxtəlif şirkətlərin nümayəndələri iştirak ediblər.**

Dövlət Himnimiz səsləndirildikdən sonra “Əczaçılar Klubu”nun sədri Şövqi Bunyatov rəhbəri olduğu ictimai birliyin fəaliyyəti haqqında ətraflı məlumat verib. Əczaçılıq sektorunun inkişafının vacibliyini söyləyən Ş.Bünyatov, bu sahədəki bəzi problemlərə, xüsusən dərman təhlükəsizliyinə və qeyri-leqal fəaliyyətlərə qarşı mübarizənin vacibliyinə də toxunub. Həmçinin rəhbərlik etdiyi ictimai birliyin hər zaman əczaçıların hüquqlarını müdafiə etməyə hazır olduğunu, dövlət qurumları ilə sıx əməkdaşlıq nəticəsində Azərbaycan əczaçılığının gələcəkdə regional liderə çevriləcəyinə inandığını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən ATU-nun Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli ilk növbədə konfrans iştirakçılarına rektor, professor Gəray Gəraybəylinin təbriklərini çatdırıb: “Hörmətli qonaqlar, dəyərli həmkarlar, əziz tələbələr və gələcəyin əczaçıları, sizi əczaçılar konfransında salamlamaqdan böyük şərəf və qürur duyuram. Xüsusilə də bu tədbirin Azərbaycan Tibb Universitetinin divarları arasında keçirilməsi ikiqat sevinclidir”.

Çıxışında əczaçılıq peşəsinin mahiyyətindən danışan natiq bildirib ki, əczaçı təkcə dərman hazırlayan mütəxəssis deyil, həm də elmin, vicdanın və insan sevgisinin daşıyıcısıdır: “Əczaçı elmlə insan arasında körpü rolunu oynayır, ağrını yüngülləşdirir, ümidi bərpa edir. O, bir molekulu ümidə, bir formulu sağlamlığa çevirən və elmi biliklə insan taleyini gələcəyə aparan şəxsdir. Bu gün əczaçılıq elmi sürətlə inkişaf edir – biotexnologiyalar, rəqəmsal səhiyyə, ünvanlı dərmanlar, süni intellekt artıq gələcəyin deyil, bu günün reallıqlarıdır. Lakin bütün bu yeniliklər içərisində dəyişməyən əsas dəyər – insan sağlamlığına xidmət missiyasıdır”.

“Əczaçılar Klubu”nun təsisçilərinə, tədbirin iştirakçılarına və əczaçı tələbələrə bu şərəfli işdə uğurlar arzulayan natiq, ölkə başçısı İlham Əliyevin qeyri-neft sektorunun inkişafına dair strategiyasına da toxunub və vurğulayıb ki, bu sənəddə dərman vasitələrinin istehsalı prioritet istiqamətlərdən biri kimi qeyd olunur: “Biz yaxın on ildə bu strategiyanın nəticələrini təqdim etməliyik. Əczaçılar bu yolda əsl mənada bir ordunun əsgərləridir. Biz xalqımızın sağlamlığı, səhiyyənin inkişafı və əczaçılıq sahəsinin tərəqqisi uğrunda mübarizə aparırıq”.

Daha sonra çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədr müavini Emil Hüseynli əczaçılıq sektorunun ölkəmizin səhiyyə sistemindəki vacib rolunu vurğulayıb, son illərdə əczaçılıq sektorunun sürətlə inkişaf etdiyini və yerli dərman istehsalının artırılması ilə xarici tədarükdən asılılığın azaldığını bildirib.

Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) başqanı Rəşad Cabirli səhiyyə və əczaçılıq sektorunun təkcə iqtisadi sahə deyil, həm də ictimai məsuliyyət və milli dayanıqlıq baxımından böyük önəm daşıdığını deyib. Eyni zamanda, yerli istehsalın təşviqinin, beynəlxalq əməkdaşlığın gücləndirilməsinin və innovativ tibb texnologiyalarının tətbiqinin önəmli prioritetlər olduğunu bildirib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin şöbə müdiri Elmin Quliyev əhalinin dərman təminatının yaxşılaşdırılması və tibbi sığorta sisteminin şəffaflığının artırılması məqsədilə Nazirlər Kabineti tərəfindən həyata keçirilən yeni təşəbbüslərdən bəhs edib. Həmçinin yaxın zamanlarda dərman təminatının maliyyələşdirilməsi ilə bağlı yeni qərarların qəbul ediləcəyini və elektron reseptlər vasitəsilə bəzi dərmanların pulsuz veriləcəyini bildirib. Şöbə müdiri yeni qərarların təsdiqindən sonra sığorta üzrə maliyyələşdirmənin yeni modelinə keçiləcəyi, elektron reseptlərin tətbiqi ilə bağlı daha geniş təhlil və izləmə sistemlərinin yaradılacağını da əlavə edib.

Tədbirin sonunda əczaçılıq sahəsində fəaliyyəti ilə seçilən müəssisələrin nümayəndələrinə “Əczaçılar Klubu” İctimai Birliyinin təşəkkürnamələri təqdim olunub.

# Universitetimiz 29-cu Dünya Tibbi Hüquq Konqresində təmsil olunub

Bu yaxınlarda Türkiyənin İstanbul şəhərində Ankara və İstanbul universitetlərinin birgə himayəsi altında Dünya Tibbi Hüquq Assosiasiyasının (DTHA, WAML - World Association for Medical Law) 29-cu konqresi keçirilib. Müxtəlif ölkələrdən tibbi hüquq və bioetika üzrə tanınmış alimlər, hüquqşünaslar və səhiyyə mütəxəssisləri bu dəfə “Vulnerability in 21st century: respect and protection” mövzusu ətrafında bir araya gəlib. Beynəlxalq miqyasda mühüm əhəmiyyət daşıyan tədbirdə Türkiyə və Belçikadan sonra Azərbaycandan ən geniş - 27 alim və mütəxəssisin daxil olduğu nümayəndə heyəti iştirak edib. Universitetimiz tədbirdə Məhkəmə təbabəti kafedrasının professoru, tibb və hüquq elmləri doktoru, DTHA-nın baş katibi Vüqar Məmmədov, Əczaçılıq kimyası kafedrasının dosenti, əczaçılıq elmləri doktoru Cəmilə Yusifova, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, DTHA-nın üzvü Aidə Bəndəliyeva, Qidalanma və tibbi ekologiya kafedrasının baş laborantı Arzu Məmmədli ilə təmsil olunub. Onlar konqres çərçivəsində tibbi hüquq və bioetika sahəsində aktual mövzular, səhiyyə və hüquq sistemlərinin inteqrasiyası, pasiyent hüquqlarının qorunması, əlillik və reabilitasiya, bioetika və beynəlxalq əməkdaşlıq istiqamətləri üzrə aparılan geniş müzakirələrdə Azərbaycan təcrübəsini təqdim edib, eyni zamanda yeni elmi əməkdaşlıqlar üçün mühüm addımlar atıblar. Məruzələrin ilin sonunadək DTHA-nın rəsmi nəşri olan “Medicine and Law” (“Tibb və Hüquq”) jurnalında çap olunması nəzərdə tutulub. Qeyd edək ki, DTHA 1967-ci ildən tibb və səhiyyədə insan hüquqlarının, hüquq və bioetikaya aid multikultural və fənlərarası problemlərin, həyat və sağlamlığın qorunmasının tədqiqatı məqsədilə hüquq, tibb və bioetika üzrə mütəxəssisləri birləşdirən peşəkar assosiasiyadır. O, UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Haaqa Beynəlxalq Cinayət Məhkəməsi kimi bir çox nüfuzlu beynəlxalq və milli peşəkar təşkilatlarla sıx əməkdaşlıq edir. Universitetimizin əməkdaşlarının beynəlxalq konqresdə fəal iştirakı bir daha sübut edir ki, Azərbaycan alimləri beynəlxalq elmi məkanın fəal iştirakçılarıdır və müasir qlobal çağırışların həllində söz demək imkanlarına sahibdirlər.



Yeri gəlmişkən, Assosiasiyanın növbəti - 30-cu konqresi 2026-cı ilin avqust ayında Belçikanın Antverpen şəhərində keçiriləcək. ATU əməkdaşları və tələbələrimiz konqresdə iştirak və çıxış etmək, tezislər göndərmək üçün dəvət olunur.

**Stomatologiya fakültəsində fakültə rəhbərliyinin bütün kursların qrup rəhbərləri ilə görüşü keçirilib. 21 oktyabr 2025-ci il tarixində baş tutan görüşdə dekan, dosent Elmira Əliyeva tələbələrin tədris fəaliyyəti və gündəlik universitet həyatı ilə bağlı aktual məsələləri müzakirə edib.**

# Stomatologiya fakültəsində qrup rəhbərləri ilə görüş keçirilib



Görüş zamanı nizam-intizam, dərslərdə iştirak səviyyəsi, akademik prosesin təşkili və qarşıdakı aralıq, eləcə də qış imtahanlarının keçirilmə qaydaları barədə ətraflı söhbət aparılıb. Tələbələr fikirlərini bölüşüb, suallar ünvanlayıb, fakültə rəhbərliyi isə onları dinləyərək ətraflı cavablar verib. Dekan E.Əliyeva çıxışında qeyd edib ki, tələbələrin akademik mühitdə daha fəal və məsuliyyətli mövqe tutması fakültənin inkişafı üçün mühüm əhəmiyyət daşıyır: “Bizim əsas məqsədimiz tələbələrin tədris prosesində iştirakını gücləndirmək, onları həm nəzəri, həm də praktiki biliklərə daha da təşviq etməkdir. Nizam-intizam və davamiyyət bu məqsədə çatmaq üçün ən vacib şərtlərdəndir”.

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) dəstəyi ilə “IDEALISE” inkubasiya proqramı çərçivəsində canlı və praktik yönümlü təlim keçirilib. Təlimin mövzusu “Komandanın qurulması və inkişafı” olub.**

# Əməkdaşımız ADNSU tələbələrinə məsləhətlər verib



Öz ideyasını uğurlu layihəyə çevirmək istəyən gənclərə hesablanmış təlimi universitetimizin dosenti, startap mentoru və beynəlxalq GInS və AInA sertifikatlarının sahibi Ayat Cəfərova aparıb. İştirakçılar güclü komandanın formalaşması, rolların və məsuliyyətlərin bölgüsü, motivasiya, etimad və qarşılıqlı hörmətin əhəmiyyəti barədə müzakirələr aparıblar. A.Cəfərova bildirib ki, kiçik bir ideyanı böyük uğura çevirən əsas güc komandanın birliyi və inamıdır: “Startap hər şeydən əvvəl insanlardan başlayır, məhsuldan yox. Əgər birlikdə işləməyi bacarırsınızsa, uğurun yarısını artıq qazanmısınız”. Təlim iştirakçıları qeyd edib ki, bu görüş onlar üçün gələcək layihələrdə daha effektiv əməkdaşlıq qurmaq və liderlik potensialını inkişaf etdirmək baxımından motivasiya mənbəyi olub.

**Bu günlərdə Tədris Cərrahiyyə Klinikasında 85 yaşlı xəstə üzərində mürəkkəb cərrahi əməliyyat uğurla həyata keçirilib. Əməliyyat klinikanın Neyrocərrahiyyə şöbəsinin müdiri Cəmil İskəndərovun rəhbərliyi ilə aparılıb.**

# 85 yaşlı xəstə üzərində mürəkkəb əməliyyat icra olunub




Şöbə müdirinin bildirdiyinə görə, 85 yaşlı xəstə yıxılaraq ağır travma alıb: “Xəstədə travmadan sonra kəskin boyun ağrıları qeyd olunub. Müayinə zamanı onda 2-ci boyun fəqərəsinin qeyri-stabil sınığı aşkar edildi. Belə hallarda xəstənin ağrılarını azaltmaq və aktiv həyatına davam etməsi məqsədilə cərrahi əməliyyatın icrası mütləqdir. Xəstənin yaxınları ölkədə fəaliyyət göstərən bir sıra klinikalara müraciət etsələr də, həm xəstənin yaşı, həm də problemin ciddi olması səbəbindən imtina cavabı almışdılar. Qeyd edim ki, bu tipli sınıqlar nə qədər tez cərrahi əməliyyat olunarsa, nəticə daha yaxşı olur. Odur ki, bizə müraciət edən kimi, xəstəni dərhal əməliyyata götürdük. Əməliyyat təxminən 1,5 saat çəkdi. Ertəsi gün ağrılar azaldı. Hazırda xəstəmizin vəziyyəti stabildir, özünü normal hiss edir”.

## Qazaxıstanlı professor mühazirələr oxuyub



Akademik mobillik proqramı çərçivəsində Qərbi Qazaxıstan Tibb Universitetinin Patoloji fiziologiya kafedrasının müdiri, tibb elmləri namizədi, dosent Ajar Jeksenova qonağımız olub. 13-17 oktyabr tarixlərində professor A.Jeksenova ATU-nun eyniadlı kafedrasında tələbələrə mühazirələr oxuyub və praktik məşğələlər aparıb.
Mühazirələrin ilk günündə Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev qonağı salamlayaraq onun haqqında məlumat verib, A.Jeksenovanın universitetdə tədris aparmasının hər iki tərəf üçün faydalı təcrübə mübadiləsi olacağını vurğulayıb. Səfərin sonunda professor S.Əliyev tərəfindən A.Jeksenovaya sertifikat təqdim olunub.

## Təkmilləşdirilmiş protez konstruksiyasına patent verilib


Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi
Patent
İXTİRA
İ 2025 0078
DİŞ PROTEZİ VƏ ONUN HAZIRLANMASI ÜSULU
Patentin sahibi: İmanov Elnur Ədalət oğlu (AZ)
Müəlliflər: İmanov Elnur Ədalət oğlu (AZ)
Həsənov Mürsəl Əlinadir oğlu (AZ)
İddia sənədinin nömrəsi: a 2024 0122
İlkinlik tarixi: 31.07.2024
Dövlət reyestrində qeyd olunub: 04.08.2025
İdarə Heyətinin sədri Kamran İmanov

Uşaq stomatologiya kafedrasının dosenti Elnur İmanov tam dişsiz çənələr üçün nəzərdə tutulmuş çıxan lövhəli protezlərin yeni və təkmilləşdirilmiş konstruksiyasını hazırlayıb. Bu yeni protez dizaynı xəstələr üçün rahatlıq və funksionallıq baxımından mühüm irəliləyiş hesab olunur.
Doktor E.İmanovun bu ixtirası Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən 2025-ci ilin avqust ayında patentləşdirilib. Patentləşmə prosesi protezin unikal xüsusiyyətləri və tətbiq sahəsindəki yenilikçi yanaşmasının rəsmi şəkildə tanınması kimi qiymətləndirilir.
Həkim-stomatoloqun protez konstruksiyası tam dişsiz çənəsi olan şəxslərin həyat keyfiyyətini artırmaq məqsədi daşıyır. Yeni protez daha möhkəm yapışma, rahat istifadə və davamlılıq xüsusiyyətlərinə malikdir ki, bu da xəstələr üçün stomatoloji xidmətlərin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

**Bu günlərdə universitetimizin Tədris Terapevtik Klinikasında əczaçılıq və bioloji təbabət sahəsində əhəmiyyətli elmi tədbir keçirilib.**

## İtaliyalı professorun iştirakı ilə elmi seminarlar keçirilib

Tədbirin açılışında çıxış edən Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan iştirakçıları salamlayaraq, bu cür beynəlxalq seminarların Azərbaycan Tibb Universitetində tədrisin və tədqiqat fəaliyyətinin inkişafına töhfə verdiyini vurğulayıb.
Klinikanın direktoru, professor Vəsadət Əzizov, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, eləcə də fakültənin müəllimləri, tələbələr və tibb ictimaiyyətinin nümayəndələri tədbirdə iştirak edib.
ATU-nun Əczaçılıq fakültəsi, "Bioloji təbabət" klinikası və Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının təşkilatçılığı ilə baş tutan seminarların qonağı İtaliyanın tanınmış GUNA Pharmaceuticals şirkətinin Elmi şöbəsinin direktoru, professor Alessandro Perra (Milan, İtaliya) olub. "Kiçikdozalı preparatların farmakologiyası" və "Kiçikdozalı sitokinlərin klinik praktikada istifadəsi" adlı məruzələrində professor A.Perra bu sahədə son tədqiqat nəticələri barədə ətraflı məlumat verib. Seminarlarda iştirakçılar tərəfindən aktiv müzakirələr aparılıb, mövzular ətrafında sual-cavab sessiyası təşkil olunub.



## Suverenlik ili: Azərbaycanın tarixi Zəfərindən gələcəyə uzanan yol

**Azərbaycan dövlətçiliyinin tarixdə ən uca dəyəri suverenlik, yəni milli müstəqillik olmuşdur. Bu, xalqımızın azad iradəsini, milli birliyini və dövlətin müstəqil siyasətyürütmək gücünü ifadə edən müqəddəs anlayışdır.**
Prezident İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması yalnız simvolik qərar deyil – bu, müasir Azərbaycan tarixində yeni mərhələnin başlanğıcı, dövlət müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi istiqamətində ümummilli çağırışdır.
**Suverenliyin mənası:** dövlət azadlığının təməli. "Suverenlik" anlayışı fransız mənşəli olub "ali hakimiyyət", "müstəqil qərarvermə hüququ" deməkdir. Azərbaycan xalqı üçün suverenlik təkcə siyasi anlayış deyil - bu, əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərdir. Müstəqilliyimizin bərpası, ərazi bütövlüyümüzün təmin olunması, dövlətçiliyimizin möhkəmlənməsi məhz bu dəyərin üzərində qurulmuşdur.
**Azərbaycanın müasir suverenliyi iki əsas dayağa söykənir:** xalqın iradəsi – dövlət hakimiyyətinin yeganə mənbəyi və dövlətin müstəqilliyi – daxili və xarici siyasətdə heç bir gücə tabe olmadan qərar vermək imkanı.
**Tarixi baxış:** suverenlik uğrunda mübarizənin mərhələləri. Azərbaycan xalqının suverenlik uğrunda mübarizəsi çoxəsrlik tarixə malikdir. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika kimi suveren dövlətçilik ənənələrinin təməlini qoydu. Cümhuriyyətin ömrü cəmi 23 ay sürsə də, onun ideyaları 1991-ci ildə müstəqilliyimizin bərpasına ideoloji zəmin yaratdı. Müstəqilliyimizin bərpasından sonra Ümummilli Lider Heydər Əliyev Azərbaycanın siyasi, iqtisadi və hüquqi suverenliyini möhkəmləndirərək, dövlətçiliyin bərpası prosesini tamamladı. Bu kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.
**Zəfərdən gələn suverenlik**. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbə Azərbaycanın tam suveren dövlətə çevrilməsinin zirvəsi oldu. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu Zəfər dövlətin siyasi, hərbi və ideoloji müstəqilliyinin parlaq təcəssümüdür.
Suverenliyin mahiyyəti təkcə bayrağımızın dalğalanmasında deyil, xalqın öz taleyinə sahib çıxmaq iradəsində, milli ruhun dirçəlişində özünü göstərir. Bu mənada 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilməsi xalqımızın bu tarixi qələbəsinin davamı, onun ideya müstəvisində yaşadılmasıdır.
**Suverenlik ili:** milli birliyin və dövlətçilik düşüncəsinin ili. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər, layihələr və təşəbbüslər yalnız tarixi qələbəmizi xatırlatmaq məqsədi daşımır. Bu həm də gənc nəsildə dövlətçilik düşüncəsini, milli qüruru və vətəndaş məsuliyyətini daha da gücləndirmək baxımından mühüm əhəmiyyət daşıyır.
Təhsil müəssisələrində "Suveren Azərbaycan" mövzusunda açıq dərslər və elmi konfranslar təşkil olunur, mədəniyyət və incəsənət sahəsində uyğun layihələr reallaşdırılır, elmi tədqiqatlarda Azərbaycanın dövlətçilik ənənələri, milli kimlik və müstəqillik ideyası daha dərindən öyrənilir.
**Müasir çağırışlar**: suverenliyin qorunması. Bugünkü qloballaşma şəraitində suverenliyi qorumaq asan deyil. İnformasiya axınları, iqtisadi asılılıqlar, beynəlxalq siyasi təzyiqlər suverenlik üçün yeni sınaqlar yaradır. Lakin Azərbaycan bu çağırışlara müstəqil siyasət, dayanıqlı iqtisadiyyat və güclü ordu ilə cavab verir. Prezident İlham Əliyevin sözləri ilə desək: "Biz öz taleyimizin sahibləriyik. Heç kim bizim azadlığımızı, suverenliyimizi şübhə altına ala bilməz." Bu sözlər bu ilin əsas şüarına çevrilib.
2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycan dövlətçiliyinin yeni mərhələsinin başlanğıcını simvolizə edir. Bu il - tariximizin, qələbəmizin və milli ruhumuzun bayramıdır. Suveren Azərbaycan - azad düşüncənin, milli iradənin və dövlət müdrikliyinin təntənəsidir. Hər bir vətəndaş bu ilin mənəvi məzmununu dərk etməli, dövlətin suverenliyinin qorunması işinə öz töhfəsini verməlidir.
**Çünki suverenlik hər bir azərbaycanlının qürurudur!**

**Sona HEYDƏROVA**
İctimai fənlər kafedrasının
baş laborantı

# Baxıb-görməklə plastik cərrah olmaq mümkün deyil

## Adil Cümşüdov: Orqanların köçürülməsində plastik cərrahiyyənin rolu və əhəmiyyəti xeyli dərəcədə artacaq

**Plastik cərrahiyyə bu gün aktuallığı ilə seçilən sahələrdən biridir. Bu sahə nə qədər inkişaf etmiş olsa da, problemlərdən də xali deyil. Ölkəmizdə plastik cərrahiyyənin hazırki vəziyyəti, tətbiq olunan yeniliklər və digər məsələlərə bağlı Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsinin müdiri, Ümumi cərrahiyyə kafedrasının assistenti, plastik-rekonstruktiv cərrah Adil Cümşüdovla əlaqə saxladıq.**



O, ölkəmizdə "plastik cərrah" adını asan yolla almaq istəyənlərin, saxta "estetik cərrah"ların sayının həddən artıq olduğunu təəssüf hissi ilə qeyd etdi. Bildirdi ki, hətta həkim olmayanlar belə özlərini "plastik cərrah", "estetik cərrah" adlandırırlar: "Əvvəlcə qeyd edim ki, "estetik cərrah" deyilən bir ixtisas yoxdur. "Plastik, rekonstruktiv, estetik cərrah" ixtisası var. Yəni bunların üçü bir yerdədir. Çünki bədənin hər hansı nahiyəsinin estetikasını etməmişdən əvvəl, həmin nahiyənin anatomiyasını cərrahi əməliyyat aparmağa əsas verəcək səviyyədə bilməlisən. Üstəlik də estetik əməliyyatları aparmaq vərdişlərin olmalıdır. Təəssüflər olsun ki, ölkəmizdə bu sahədə əsl mütəxəssislər çox azdır.
Özlərini "plastik cərrah" adlandıranlar bilməlidir ki, təcrübə önəmli olduğu kimi, tibbi nəzəriyyə də önəmlidir. Görməklə, kənardan izləməklə hər şeyi bacarmaq mümkün deyil. Gərək bu sahə üzrə təhsil ala və təcrübə qazanasan ki, sabah kimisə bədbəxt etməyəsən".
Mütəxəssis son vaxtlar aidiyyəti qurumların plastik cərrahlarla bağlı atdığı addımları təqdir edir. Belə ki, ölkəmizin ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının kompleks şəkildə yoxlanılması məqsədilə Səhiyyə Nazirliyi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradıldı. Komissiya araşdırma apardı və nəticədə 250 nəfərin arasından 42 plastik cərraha icazə verildi. Onların mətbuatda siyahısı açıqlandı. Siyahıda rezidenturanı yeni bitirmiş məzunlarımız, Türkiyədə təhsillərini başa vurmuş uzmanlar, daha öncəki illərdə Rusiyada müdafiə etmiş plastik cərrahlar da var. Beləliklə, Azərbaycanda rəsmən 42 həkim plastik cərrah kimi fəaliyyət göstərə bilər.
A.Cümşüdov plastik cərrahiyyənin yaranma tarixindən də söhbət açdı. Bildirdi ki, bu sahənin yaranması II Dünya müharibəsindən sonraya təsadüf edir: "Rekonstruktiv cərrahiyyənin tarixi isə daha əvvəllərə gedib çıxır. Qopmuş ətrafların, üzdəki yumşaq toxumaların, orqan deffektlərinin yenidən bərpasını buna misal çəkmək olar.
Qeyd edim ki, plastik cərrahiyyənin istər I, istərsə də II Qarabağ müharibələrində rolu böyük olub. Elə mənim çalışdığım Tədris Cərrahiyyə Klinikasında yaralı hərbçilərimiz üzərində onlarla, yüzlərlə plastik, rekonstuktiv əməliyyatlar icra etmişik. Müharibədən sonrakı illərdə də bu ağır əməliyyatlar davam etdirilib.
Dünyada elə əməliyyatlar var ki, onlar nadir hallarda icra olunur. Biz bu tipli əməliyyatları II Qarabağ müharibəsindən sonra qazilər üzərində apara bilmişik. Həmin əməliyyatlar o vaxtadək heç MDB məkanında icra edilməyib. Belə ki, yumşaq toxumaların itirildiyi, əllərin, ayaqların qopduğu və çənənin tamamilə sıradan çıxdığı nahiyələrdə tutarlı rekonstruktiv əməliyyatlar aparmışıq. Funksionallıq 60-80 faiz arası olub. Ən yaxşı hal odur ki, heç bir əməliyyatımız uğursuz alınmayıb.
Unutmaq olmaz ki, mürəkkəb əməliyyatlarda bir faiz də səhlənkarlığa yol verilməməlidir. Tibb müəssisələri bu baxımdan kifayət qədər məsuliyyətli olmalıdır. Ümumiyyətlə, ən kiçik əməliyyatlardan tutmuş, ən mürəkkəb əməliyyatlaradək ixtisaslaşmış xəstəxanalar seçilməlidir. Bizim klinikada mürəkkəb əməliyyatları icra etmək üçün lazımi şərait və təcrübəli həkimlərimiz var".
Plastik cərrah orqan transplantasiyasından və bu barədə mövcud qanunvericilikdən, qanun icra olunduqca ortaya çıxa biləcək yeniliklərdən də söhbət açdı. Son illər beyni ölmüş xəstələrdən yaxın qohumlarının razılığı ilə orqanların köçürülməsinə icazə verildiyini xatırlatdı: "Hesab edirəm ki, orqanların köçürülməsində plastik cərrahiyyənin rolu və əhəmiyyəti xeyli dərəcədə artacaq. Yəni dünya səviyyəli cərrahi əməliyyatları ölkəmizdə də etmək mümkün olacaq. Məsələn, ölkəmizdə qaraciyər, böyrək transplantasiyası əməliyyatları həyata keçirilib, amma kompozit toxuma nəqli əməliyyatları olmayıb. İnanıram ki, biz plastik cərrahlar tezliklə ölkəmizdə bu əməliyyata da imza atacağıq".

**Qabil ABDULLAYEV**

# ATU-nun professoru beynəlxalq konfransda çıxış edib



Özbəkistanın Daşkənd Əczaçılıq İnstitutunun təşəbbüsü ilə “Əczaçılıq sənayesinin mövcud vəziyyəti: problemlər və perspektivlər” mövzusunda VI Beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbirdə Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor, Beynəlxalq Elmlər Akademiyasının akademiki və vitse-prezidenti Məhbubə Vəliyeva da iştirak edib.
Professor M.Vəliyeva konfransda “Biyan əsaslı lenfotrop dərmanların hazırlanması və onların əczaçılıq sənayesində tətbiqi” mövzusunda elmi məruzə oxuyub.
Beynəlxalq tədbirdə Özbəkistanın müvafiq nazirlik və idarələrinin nümayəndələri, Daşkənd Əczaçılıq İnstitutunun professor-müəllim heyəti, elmi-tədqiqat müəssisələrinin əməkdaşları, həmçinin Türkiyə, Danimarka, Koreya, Çin, Rusiya, Belarus, Azərbaycan, Hindistan, İran, Ukrayna, Qazaxıstan, Tacikistan və Qırğızıstandan alimlər iştirak ediblər.
Konfrans çərçivəsində əczaçılıq sənayesinin inkişafına dair yeni strategiyalar, beynəlxalq elmi əməkdaşlıq imkanları və yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində müasir yanaşmalar müzakirə olunub.
Tədbir zamanı Özbəkistanın Əczaçılıq sənayesinin inkişafı üzrə agentliyinin direktoru Abdulla Əzizov professor Məhbubə Vəliyeva ilə görüş keçirib. M.Vəliyeva son illər Özbəkistanın əczaçılıq sənayesində müşahidə olunan inkişafı yüksək qiymətləndirib. A.Əzizov isə “Tashkent Pharma Park” layihəsi çərçivəsində həyata keçirilən islahatlar və yeniliklər barədə ətraflı məlumat verib.
Görüş zamanı Azərbaycan Tibb Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası və Özbəkistanın müvafiq qurumları arasında elmi əməkdaşlığın inkişaf etdirilməsi imkanları da müzakirə olunub.



# Kafedra müdiri məruzə oxuyub

Biokimya kafedrasının müdiri, professor Gülnarə Əzizova 16-18 oktyabr 2025-ci il tarixlərində Özbəkistanın Nukus şəhərində keçirilən III Beynəlxalq Elmi Konfransda iştirak edib.
“Preservation of Biomultiformity – Modern Issues, Solutions and Perspectives” (“Biomüxtəlifliyin qorunması – Müasir problemlər, həll yolları və perspektivlər”) adlı beynəlxalq tədbirdə dünyanın müxtəlif ölkələrindən elm və təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər bir araya gəlib.
Konfrans çərçivəsində professor G.Əzizova “Clinical markers and their importance in the diagnosis of colorectal cancer” (“Klinik markerlər və onların yoğun bağırsaq xərçənginin diaqnostikasında əhəmiyyəti”) mövzusunda elmi məruzə ilə çıxış edib. Məruzədə klinik markerlərin erkən diaqnostika və effektiv müalicə strategiyalarının müəyyən edilməsində rolu elmi əsaslarla izah olunub.




# Otorinolarinqoloqlarımız Özbəkistandan qayıdıb

Bu günlərdə Özbəkistanda keçirilən Otorinolarinqoloqların VI Qurultayı və Otorinolarinqologiya üzrə II Asiya Sammitində universitetimizin Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının əməkdaşları iştirak ediblər.
Kafedra müdiri, professor Vəfa Pənahian qurultayda “Müharibə dövründə kəllə travmaları zamanı timpanoplastikanın xüsusiyyətləri” və “Mastoidoektomiya zamanı fasial parezlərin səbəbləri” mövzularında məruzə ilə çıxış edərək, müasir klinik praktikada mühüm yenilikləri və təcrübəsini bölüşüb. Onun təqdimatları xarici mütəxəssislər tərəfindən böyük maraqla qarşılanıb.
Kafedranın digər əməkdaşları - assistentlər Afaq Şadlinskaya, Aynurə Sucəddinova, dosent Sara Ağalar və baş laborant Jalə Eyvazova da elmi sessiyalarda aktiv şəkildə iştirak edib və təcrübə mübadiləsi aparıblar.

# Rezidentlər üçün növbəti elmi seminar keçirilib

**Rezidentura və magistratura şöbəsi Tədris Cərrahiyyə Klinikasının Klinik-diaqnostik laboratoriya şöbəsi ilə birgə rezidentlər üçün “Hamiləlikdə prenatal tarama testləri (ikili, üçlü və dördlü test)” mövzusunda növbəti seminar keçirib.**
Seminarın laborator təcrübəyə əsaslanan və klinik əhəmiyyət daşıyan aktual bir mövzuya - prenatal diaqnostikada istifadə edilən skrininq testlərinə həsr olunduğunu söyləyən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent dr. Namiq Xəlilov bildirib ki, prenatal tarama testləri hamiləlik dövründə genetik risklərin erkən aşkarlanmasında və düzgün klinik qərarların verilməsində mühüm rol oynayır. Onun sözlərinə görə, bu cür seminarlar gənc həkim-rezidentlərin nəzəri biliklərini gücləndirməklə yanaşı, onların klinik qərarvermə bacarıqlarını və multidisiplinar əməkdaşlıq anlayışını da inkişaf etdirir.
Tədbirdə klinikanın adıçəkilən şöbəsinin müdiri dr. Leyla Həşimova, klinik biokimya mütəxəssisi dr. Bəsti Məmmədova, eləcə də Ginekologiya və digər şöbələrin həkim və rezidentləri iştirak ediblər.
Laboratoriyanın müdiri L.Həşimova çıxışında qeyd edib ki, prenatal tarama testlərinin düzgün icrası və nəticələrinin interpretasiyası yalnız laborator göstəricilərin analizi ilə məhdudlaşmamalı, klinik məlumatlarla inteqrasiya olunmalıdır. O, laborator mütəxəssis və klinisist arasında effektiv əməkdaşlığın prenatal diaqnostikanın dəqiqliyini artırdığını və yanlış pozitiv nəticələrin qarşısını aldığını vurğulayıb.
Seminar çərçivəsində Klinik-diaqnostik laboratoriya şöbəsinin II kurs həkim-rezidenti Əli Eynullayevin məruzəsi dinlənilib. O, hamiləlikdə prenatal tarama testləri haqqında geniş məlumat verərək, bu testlərin diaqnostik deyil, risk qiymətləndirmə məqsədi daşıdığını, əsas məqsədin dölün xromosom anomaliyaları (Daun, Edvard, Patau sindromları) və sinir borusu defektləri (NTD) baxımından ehtimal riskini müəyyənləşdirmək olduğunu diqqətə çatdırıb.



Qeyd edib ki, ikili test hamiləliyin 11-14-cü həftələrində aparılır və PAPP-A və Free β-hCG markerlərinə əsaslanır. Hamiləliyin 15-20-ci həftələrində həyata keçirilən üçlü testin isə AFP, hCG, uE3 parametrləri qiymətləndirilir. Dördlü test də 15-20-ci həftələrdə həyata keçirilir, amma əlavə olaraq İnhibin-A göstəricisi də nəzərə alınır. Buna görə də üçlü testə nisbətən daha dəqiq nəticə verir.
Məruzəçi bildirib ki, testlərdə əldə olunan MoM (Multiple of Median) dəyərləri yaş, hamiləlik həftəsi və ultrasəs müayinəsinin (USM) nəticələri ilə birlikdə qiymətləndirildikdə, daha real risk səviyyəsi müəyyənləşir. O əlavə edib ki, doğru hamiləlik həftəsinin müəyyən olunmaması prenatal testlərdə yalançı pozitivliklərin ən əsas səbəblərindən biridir.
Müzakirələr zamanı B.Məmmədova 35 yaşdan yuxarı və əkiz hamiləliklərdə test nəticələrinin qiymətləndirilməsi ilə bağlı sual ünvanlayıb. Əli Eynullayev bildirib ki, 35 yaşdan yuxarı hamilələrdə xromosom anomaliyaları riski yüksək olduğundan, bu qrupda prenatal skrininqlər mütləq aparılmalıdır. Əkiz hamiləliklərdə isə biomarkerlərin fizioloji olaraq yüksək səviyyədə olması səbəbindən səhv pozitiv nəticələr ehtimalı artır.
O, L.Həşimovanın MoM dəyərlərinin yüksək olması ilə genetik anomaliya riski arasındakı əlaqə barədə sualını da cavablandıraraq qeyd edib ki, MoM dəyərləri risk göstəricisidir, lakin birbaşa anomaliya səbutu deyil. Bu dəyərlərin doğru interpretasiyası yalnız yaş, hamiləlik həftəsi və ultrasəs göstəriciləri ilə birlikdə aparıldıqda real nəticə verir.
Seminarın sonunda mövzuya uyğun situasiya tapşırığı təqdim olunub və iştirakçılar analiz nəticələrinin interpretasiyasını praktiki şəkildə müzakirə ediblər.

# Uşaqlarda döş qəfəsi xəstəlikləri İstanbulda müzakirəyə çıxarılıb

Türkiyənin İstanbul şəhərində uşaqlarda döş qəfəsi xəstəliklərinə həsr olunmuş 9-cu konqres keçirilib. Xarici ölkə alimlərinin də iştirak etdiyi konqresdə pediatrik pulmonologiyanın aktual məsələləri ilə yanaşı, döş qəfəsi deformasiyalarının yaratdığı problemlər və onların həlli yollarından danışılıb.
Uşaqlarda son illər geniş yayılmış respirator infeksiyalar, onların törətdiyi bronx-ağciyər xəstəlikləri, xroniki öskürəklərin səbəbləri, vizinq sindrom, obstruktiv yuxu apnoesi, ətraf mühitin, ekologiyanın, tütünün uşaqyaşı xəstəliklərinə təsiri barədə geniş təqdimatlar olub. Həmçinin bronxial astma, allergik rinit kimi allergik xəstəliklərin uşaqlarda gedişi, diaqnostikası və müalicəsində son yeniliklər, klinik protokollarda olan əlavələr, uşaqlarda immun çatışmazlıqlar, tənəffüs yollarının anadangəlmə anomaliyaları, kistik fibroz, vərəm, döş qəfəsi xəstəlikləri zamanı təcili və təxirəsalınmaz yardım tələb edən patologiyalar və s. aktual mövzularda bir-birindən maraqlı məruzələr dinlənilib, geniş diskussiyalar aparılıb.
Ölkəmizi beynəlxalq tədbirdə universitetimizin




II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova təmsil edib. Əməkdaşımızın “Nəfəsalması xışıltılı uşaqlarda fürsətçi infeksiyaların rolu, onların törədicilərinin tezliyi və atopiya ilə əlaqəsi” mövzusunda çıxışı konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**Özbəkistanın paytaxtı Daşkənd şəhərində I beynəlxalq "Qadın sağlamlığı və estetik ginekologiya" konqresi baş tutub. I Mamalıq-ginekologiya kafedrasının dosenti Sevinc İsmayılova tədbirdə universitetimizi təmsil edərək, "Hamiləlik dövründə servikal sitologiyada anomaliyalar" mövzusunda elmi məruzə ilə çıxış edib.**




# Əməkdaşımız servikal xəstəliklərdən danışıb

Məruzədə hamiləlik zamanı uşaqlıq boynunun xərçəngönü xəstəliklərinin diaqnostikası və müalicəsinin çətinlikləri, həmçinin doğuş taktikasının seçilməsi məsələləri müzakirə olunub. Hamilə qadınlarda bu patologiyaların erkən aşkar olunmasının ümumi populyasiyaya nisbətən daha yüksək olduğu vurğulanıb.
Eyni zamanda, sitoloji skrininqin mütləq aparılması və kolposkopiyanın diaqnostik dəqiqliyi qeyd edilib. Hamiləlikdə servikal xəstəliklərə aqressiv müdaxilədən çox, konservativ müşahidənin üstünlük təşkil etdiyi bildirilib.
S.İsmayılova çıxışının sonunda ATU-nun ginekologiya kafedralarındakı yeniliklər və Tədris Cərrahiyyə Klinikasının Ginekologiya şöbəsində yaradılmış müasir şərait barədə də məlumat verib.

# Hərbi tibb fakültəsi iməcilik keçirib



**Hərbi tibb fakültəsinin şəxsi heyəti 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə iməcilik təşkil edib. Tədbirin əsas məqsədi Vətənə olan sevgi və hörməti əməli işlərlə ifadə etmək, həmçinin ətraf mühitin təmizliyinə və abadlaşdırılmasına töhfə vermək idi.**

İməcilik zamanı ərazinin yaşıllaşdırılması, tullantıların yığışdırılması və abadlıq işləri həyata keçirilib. Fakültə əməkdaşları böyük həvəslə iştirak edərək həmrəyliyin, vətənpərvərliyin və vətəndaş məsuliyyətinin parlaq nümunəsini göstəriblər.

Belə tədbirlər ordumuzun birliyini möhkəmləndirir, gənc nəslə vətən sevgisini və ictimai fəallığı aşılamaq baxımından böyük əhəmiyyət kəsb edir.

# Tələbələrimiz Qazaxıstanda yüksək nəticələr göstərib

16-18 oktyabr 2025-ci il tarixlərində Qazaxıstanın Cənubi Qazaxıstan Tibb Universitetində keçirilən Gənc tədqiqatçıların və tələbələrin III Beynəlxalq Forumunda tələbələrimiz uğurla iştirak edib. ATU nümayəndə heyətinin kuratoru Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Aynur Abdulələliyeva olub.




Tədbir çərçivəsində II Müalicə-profilaktika fakültəsinin tələbəsi Qəmzə Rəhimova “Hamiləlik dövründə herpesvirus infeksiyaları: klinik nəticələr və diaqnostik strategiyalar” mövzusunda təqdimatla çıxış edərək 30 iştirakçı arasında 2-ci yerə layiq görülüb. Hərbi tibb fakültəsinin tələbəsi Orxan Muxtarov isə “Cərrahi əməliyyatlardan sonrakı ağırlaşmalar zamanı izolə olunan bakteriyaların mikrobioloji diaqnostika üsulları” adlı tədqiqat işi ilə 4-cü yeri qazanıb. Tələbələrimizdən Fidan Əliyeva, Fariz Əliyev, Esmanur Məmməd, Nəzrin Rəhimli, Ömər Nuriyev, Gözəl Fərhadlı, Aslan Ələkbərov da iştirakçılar arasında olub.

Forum iştirakçıları müxtəlif ölkə və universitetlərin nümayəndələri ilə elmi fikir mübadiləsi aparmaq, tibb sahəsində yeni bilik və yanaşmalarla tanış olmaq imkanı əldə ediblər. Bu, tələbələrin elmi potensialının inkişafı və beynəlxalq səviyyədə təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbir zamanı Azərbaycan Tibb Universiteti ilə Cənubi Qazaxıstan Tibb Universiteti arasında əməkdaşlığın gücləndirilməsinə verdiyi dəstəyə görə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adına təşəkkür məktubu ünvanlanıb.

# Almaniyanın media sistemi ilə tanışlıq seminarı baş tutub




Universitetimizin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Arzu Rəcəbova 6-16 oktyabr tarixlərində Almaniyanın Leypsiq şəhərində keçirilən "Mərkəzi və Şərqi Avropa Jurnalistləri üçün Seminar"da iştirak edib. Tədbir Saksoniya Media Təhsili Fondu tərəfindən təşkil olunub.

Təlim proqramı çərçivəsində iştirakçılar Almaniyanın televiziya və radio yayımı, çap və onlayn media sistemləri ilə bağlı ətraflı məlumat alıb, media qurumlarının gündəlik fəaliyyət prosesi ilə yerində tanış olublar.

10 gün davam edən seminar müddətində tanınmış alman jurnalistləri, media ekspertləri və ictimai xadimlərlə interaktiv görüşlər keçirilib. Tədbirdə Azərbaycanla yanaşı, Özbəkistan, Rusiya, Estoniya, Gürcüstan, Ukrayna, Albaniya, Slovakiya, Polşa, Çexiya və Bolqarıstandan olan jurnalistlər iştirak ediblər.

Seminar çərçivəsində iştirakçılar üçün Berlin, Erfurt və Kemnits şəhərlərinə səfərlər təşkil olunub, onlar Almaniyanın mədəniyyəti və tarixini əks etdirən muzeylərə baş çəkib və müxtəlif mədəni tədbirlərdə iştirak ediblər.

**II Müalicə-profilaktika fakültəsinin tələbələri Leyla Məmmədova və Aytən Hüseynzadə tərəfindən “Clinix: innovativ səhiyyəyə gedən yol” adlı təlim keçirilib. Tədbir Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşkilatçılığı ilə baş tutub.**

# “Clinix” startapı təqdim edilib




Təlimin əsas məqsədi tələbələr tərəfindən yaradılmış “Clinix” startap layihəsini təqdim etmək və komanda üçün yeni üzvlər cəlb etmək olub. Tədbir zamanı layihənin səhiyyə sahəsində innovasiyaların inkişafına töhfəsi və tələbələr üçün yaratdığı imkanlar barədə məlumat verilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiya Mərkəzinin Layihə İdarəçiliyi Departamentinin direktor müavini Zinəddin Babayev, layihə meneceri Nərmin Kərimova, ATU-nun startap koordinatoru, dosent Ayət Cəfərova, fakültə dekanının müavini Bənövşə Hüseynova və universitetin startap mentorları iştirak ediblər.

Təlimin sonunda “Clinix” startapının təsisçiləri A.Hüseynzadə və L.Məmmədova “İnnoland” İnkubasiya və Akselerasiya Mərkəzinin 4-cü Tusi İnkubasiya Proqramını uğurla başa vurduqlarına görə sertifikatla təltif olunublar.

# İki məzunumuz “Atəşgah” sığorta şirkətində işə başlayıb



İctimai səhiyyə fakültəsi məzunlarının əmək bazarında öz yeri var. Bu günlərdə iki məzunumuz - Məsumə-Banu Əliyeva və Fatma Feyzullayeva ölkənin aparıcı sığorta şirkətlərindən biri olan “Atəşgah”da həkim-koordinator vəzifəsinə təyin olunub.

Bu münasibətlə keçirilən görüşdə bildirilib ki, həkim-koordinator vəzifəsi tibbi xidmətlərin təşkili, müştəri ilə effektiv əlaqə və tibbi sənədlərin idarə olunması kimi vacib funksiyaları əhatə edir.

Görüşdə ATU-nun Məzunlarla iş şöbəsinin müdiri Şəfəq Cəbrayılova, İctimai səhiyyə fakültəsinin dekan müavini Nailə Məmmədova, “Atəşgah” sığorta şirkətinin HR komandası və Tibbi yardımın təşkili şöbəsinin əməkdaşları Nigar Əlizadə, Gülnar Kərimova, Nəzrin İsmayılova və Vüqar Hüseynli iştirak edirdilər.

Bu təyinatlar universitetimizdə verilən təhsilin yüksək keyfiyyətini, müasir tələblərə uyğun kadr hazırlığını və məzunların peşəkar kompetensiyalarını bir daha təsdiqləyir. ATU-nun səhiyyə sahəsində yüksək ixtisaslı və əmək bazarının tələblərinə uyğun kadrların hazırlanması kimi məqsədyönlü fəaliyyətinin nəticəsi göz qabağındadır.

Qeyd edək ki, bu təyinatların gerçəkləşməsində Məzunlarla iş şöbəsinin məzunlar və işəgötürənlər arasında vasitəçiliyi mühüm rol oynayıb.

# Azərbaycan tibb elminə ağır itki üz verib



**Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının məsləhətçi professoru, tibb elmləri doktoru, professor, tanınmış alim və pedaqoq Ruxsara Həmdulla qızı Əliyeva vəfat edib.**

1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Sanitariya-gigiyena fakültəsini bitirən R.Əliyeva 1962-ci ilə qədər Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda Sanitar-Epidemioloji Stansiyanın baş həkimi, 1963-cü ildən Sumqayıt şəhərində yerləşən Əmək gigiyenası və peşə xəstəlikləri institutunda kiçik elmi işçi, 1965-ci ildən isə həmin institutun əmək gigiyenası şöbəsinin müdiri vəzifəsində çalışıb.

R.Əliyeva 1968-ci ildə namizədlik, 1992-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edib, 1969-88-ci illərdə Əmək gigiyenası və peşə xəstəlikləri institutunda elmi işlər üzrə direktor müavini vəzifəsində işləyib. Onun elmi fəaliyyəti gigiyena elminin müxtəlif istiqamətlərinin inkişafına, xüsusilə əmək gigiyenası sahəsinə mühüm töhfələr verib.

R.Əliyeva 1994-cü ildən Azərbaycan Tibb Universitetinin Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının professoru kimi çalışaraq, bu illər ərzində yüzlərlə tələbə, gənc alimin yetişməsində, Azərbaycan gigiyena məktəbinin formalaşmasında mühüm rol oynayıb. O, 3 monoqrafiya, 3 dərslik, 7 dərs vəsaiti, 5 sanitariya qaydaları, 15 metodik vəsait və 300-dən artıq elmi məqalənin müəllifidir. Ruxsara Əliyeva, həmçinin AAK-ın Ekspert şurasının və Dissertasiya şurasının üzvü idi, “Səhiyyə əlaçısı”, “Əmək veteranı” kimi fəxri adlarla təltif edilmişdi. Azərbaycan Respublikasının Prezidentinin 23 iyun 2018-ci il tarixli sərəncamı ilə “Əməkdar müəllim” fəxri adına layiq görülməsi onun elmi-pedaqoji fəaliyyətinə verilən yüksək qiymətin təzahürüdür.

R.Əliyeva həm elmə və təhsilə böyük məsuliyyət və sevgi ilə yanaşması, həm də nəcib insani keyfiyyətləri ilə həmkarlarının, tələbələrinin və bütövlükdə elmi ictimaiyyətin dərin hörmətini qazanmışdı. “Elmə, insanlığa və vətənə xidmət – mənim üçün həyatın mənasıdır,” – deyən professor, bu prinsipi bütün yaradıcılığı və pedaqoji fəaliyyətinin mərkəzinə çevirmiş, tələbələri və həmkarları üçün müdriklik, təmkin və insani ləyaqət nümunəsi olmuşdu.

Professor Ruxsara Əliyevanın parlaq xatirəsi, zəngin elmi irsi Azərbaycan tibb ictimaiyyətinin və onu tanıyanların yaddaşında daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Allah rəhmət eləsin!**

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dosenti Gülnarə Vəliyevaya həyat yoldaşı

**Hüseyn Hüseynovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# ATU tələbələrinin beynəlxalq uğuru



**ATU-nun tələbələri IAC 2025 – Beynəlxalq Astronavtika Konqresində ölkəmizi və universitetimizi uğurla təmsil ediblər. Avstraliyanın Sidney şəhərində keçirilən, 80-dən çox ölkədən 6000-dən artıq iştirakçının bir araya gəldiyi konqresdə II Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Leyla Ağayevanın “Fonturacetam: a new analog of sydnocarb” mövzusunda çıxışı maraqla qarşılanıb.**

Həmçinin Əczaçılıq fakültəsinin məzunu Nəzrin Cabbarlı “Nutritional Challenges and Innovations for Long-Duration Space Missions” və “Pharmaceutical Innovations in Space: Addressing Health Disorders and Radiation Effects on Astronauts” mövzularında çıxış edərək universitetimizin elmi potensialını nümayiş etdirib. Onların bu uğuru universitetimizin beynəlxalq elmi arenada artan nüfuzunun göstəricisidir və bütün ATU ailəsi üçün böyük qürur mənbəyidir.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0018
Sayı 800